**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AİLƏ, QADIN VƏ UŞAQ PROBLEMLƏRİ ÜZRƏ DÖVLƏT KOMİTƏSİNİN**
**KOLLEGİYASI**

**QƏRAR**
**№**

**Bakı şəhəri** **09 iyul 2021-ci il**

**Qadın və İcma Resurs Mərkəzlərin fəaliyyətinin gücləndirilməsi barədə**

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi 2011-ci ildən Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı ilə birgə Azərbaycanda “Kənd və rayon yerlərində yaşayan qadınların iqtisadi və sosial həyatda iştirakının təşviqatı” texniki yardım layihəsi həyata keçirir. Layihənin məqsədi kənd və rayon yerlərində yaşayan qadınların iqtisadi həyatda fəal iştirakı, sahibkarlıq fəaliyyəti və məşğulluğu üçün iqtisadi imkan və bacarıqlarının artırılmasıdır.

Layihə Biləsuvar, Salyan, Sabirabad, Neftçala, Masallı, Zaqatala, Qusar, Xaçmaz, Bakı şəhəri Xəzər rayonlarında həyata keçirilir. Layihə çərçivəsində 2011-2020-ci illərdə cəmi 9 Qadın Resurs Mərkəzi açılmışdır. Qadın Resurs Mərkəzləri, həmçinin, ölkə boyu kənd və rayon qəsəbələrində yaşayan iqtisadi baxımdan aktiv, sahibkar qadınlar arasında şəbəkənin yaradılmasına dəstək göstərmək məqsədini daşıyır və kənd qadınlarının işgüzar və sosial imkanlarının artırılmasına yönəlir.

Qadın Resurs Mərkəzləri məsləhətləşmə, mentorluq, şəbəkələşmə, gücləndirmə, təhlükəsiz məkan, yaxşı ünsiyyət və təbliğat daxil olmaqla, qadınlara geniş xidmət göstərən texniki qurum kimi fəaliyyət göstərir.

Qadın Resurs Mərkəzlərinin kənar maliyyələşmədən asılılığını azaltmaq və fəaliyyətinin davamlılığını təmin etmək məqsədilə onların dövlət qeydiyyatına alınaraq qeyri-hökumət təşkilatı kimi fəaliyyət göstərməsi təmin edilmişdir.

Komitə Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı (BMTİP) ilə birgə 2021-ci ildən etibarən Füzuli, Ağcabədi, Tərtər (Bərdə və Ağdam əhatə edilməklə) rayonlarında “Azərbaycanın Dağlıq Qarabağ regionunda əhalinin həssas qruplarının ilkin bərpa və icma dayanıqlılığının təmin edilməsi” layihəsini həyata keçirir.

İcma Resurs Mərkəzləri zərər çəkmiş icmaların ən təcili ehtiyaclarının müəyyənləşdirilməsinə kömək edəcək və əsas diqqəti qadınlar, uşaqlar və əlilliyi olan şəxslərə yönəltməklə ən çox zərər çəkmiş insanlara yaşayış imkanları, psixososial və biznes məsləhət xidmətləri daxil olmaqla sosial-iqtisadi bərpa dəstəyinin verilməsini təmin edəcəkdir.

44 günlük II Qarabağ Müharibəsindən əziyyət çəkən, xüsusilə sərhəd bölgələrində yaşayan əhalinin ehtiyaclarının müəyyənləşdirilməsi, onlara psixoloji və iqtisadi dəstəyin göstərilməsi məqsədilə Resurs Mərkəzlərinin fəaliyyətinin gücləndirilməsi nəzərdə tutulmuşdur.

Resurs Mərkəzlərinin fəaliyyətinin gücləndirilməsi məqsədilə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Kollegiyası

**QƏRARA ALIR:**

1. Qadın və İcma Resurs Mərkəzlərin fəaliyyətinin gücləndirilməsi barədə məlumat nəzərə alınsın.
2. Qadın problemləri və gender məsələləri şöbəsi Resurs Mərkəzlərinin işinin gücləndirilməsi istiqamətində müvafiq tədbirlərin həyata keçirilməsini təmin etsin.
3. Regional mərkəzlərlə iş şöbəsi Ailə əsaslı İcma Resurs Mərkəzlərinin Uşaq və Ailələrə Dəstək Mərkəzlərinin təcrübəsindən yararlanmağını təmin etsin.
4. Hüquqi təminat şöbəsinə tapşırılsın ki, Ailə əsaslı İcma Resurs Mərkəzlərinin İcra Hakimiyyətləri yanında “Gender zorakılığı və uşaqlara qarşı zorakılıq üzrə monitorinq qrupları“nın tərkibinə daxil edilməsini təmin etsin.
5. Resurs Mərkəzləri qadınların iqtisadi cəhətdən bilik, bacarıqlarının inkişaf etdirilməsi, məşğulluğuna dəstətyin verilməsi ilə yanaşı sosial zəif ailələri müəyyənləşdirərək onların problemlərinin həlli istiqamətində tədbirlər həyata keçirsin.
6. Qərarın icrasına nəzarət Komitənin sədr müavini Sədaqət Qəhrəmanovaya və aparatın rəhbəri Ceyran Rəhmətullayevaya tapşırılsın.

**Kollegiyanın sədri** **Bahar Muradova**